

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 136 (21.288)

14 iyul 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan müşavirəsi keçirilib.

Prezident İlham Əliyev müşavirədə deyib ki, bu ilin 6 ayının yekunları çox müsbətdir və Azərbaycan uğurla inkişaf edir. Dövlətimizin başçısı bildirib ki, son 6 ayda iqtisadiyyat 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz artıb. Sənaye istehsalı təxminən 4 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artıb. Ölkədə inflyasiya 3,5 faiz, əhalinin pul gəlirləri 6,2 faiz olub. Kənd təsərrüfatında 7,3 faiz artım qeydə alınıb. Son 6 ayda ölkəmizə 12,7 milyard manat sərmayə qoyulub.

Sonra Maliyyə naziri Samir Şərifov, Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov ilin 6 ayının yekunları ilə bağlı məruzələrlə çıxış ediblər.

Yekun nitqində Prezident İlham Əliyev ilin sonuna qədər iqtisadi artımın yüksək templərinin və makroiqtisadi sabitliyin saxlanması, dövlət investisiya proqramının, yeni infrastruktur, o cümlədən sosial layihələrin icrası ilə bağlı işlərin görülməsinin vacibliyini bildirib. Bölgələrin qaz, elektrik enerjisi və içməli su ilə təminatının daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verən Prezident İlham Əliyev bu layihələrin tam icrası məqsədilə müvafiq vəsaitin ayrılacağını da deyib.

## Azərbaycanı işıqlı gələcəyə aparan yol

***Cəsarəti, prinsipial qərarları, ən çətin şəraitdə çıxış yolu tapmaq məharəti ilə seçilən ümummilli liderimiz Heydər Əliyev xalqı və dövləti qarşısındakı müqayisəyəgəlməz xidmətləri ilə təkcə böyük tarixi epoxanın yaradıcısı yox, həm də alternativi olmayan mütərəqqi inkişaf yolunun müəllifidir.***

Ulu öndər Heydər Əliyevin şərəfli ömür yolu, taleyi respublikanın yarım əsrə bərabər tərəqqi və yüksəliş dövrü ilə ayrılmaz surətdə bağlıdır. Onun xalqımıza miras qoyduğu bu müqəddəs yol bundan sonra onilliklər boyunca da Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirəcək, ölkəmizin dünya sivilizasiyasına dəyərli töhfələr verməsinə, regional və qlobal məsələlərdə aparıcı mövqedə olmasına, fəallığını qoruyub saxlamasına rəvac verəcəkdir.

Dahi rəhbər Heydər Əliyev böyük uzaqgörənliklə hələ keçmiş Sovet İttifaqı dönəmində Azərbaycanın müstəqilliyinə etibarlı zəmin yaratmaq üçün konkret addımlar atmışdı. Təsadüfi deyil ki, ümummilli liderimizin birinci hakimiyyəti dövründə Azərbaycan qısa müddətdə Rusiya və Ukrayna kimi özünü iqtisadi cəhətdən təmin etməyə qadir bir respublikaya çevrildi. Həmin dövrdə bu 3 respublikadan başqa, digərləri bu səviyyəyə yüksələ bilməmişdilər.

Ümummilli lider Heydər Əliyev yaxşı bilirdi ki, millətin siyasi müstəqilliyinin təməlini həm də onun iqtisadi azadlığı şərtləndirir. Ona görə də dahi şəxsiyyət Azərbaycanın xammal istehsalçısından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevrilməsi üçün mühüm tədbirlər həyata keçirmişdir. Onun səyləri nəticəsində 1969-1982-ci illərdə Bakıda, Naxçıvanda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə yaradılan yeni müəssisələr bu gün də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına əsaslı zəmin yaradır. Yəni dahi şəxsiyyətin həmin dövrdə gördüyü işlər müstəqil dövlətin qurulmasına aparan yolun məhəkdaşını təşkil edirdi.

Əbədiyaşar lider Heydər Əliyev məsələnin mahiyyətini belə izah edirdi: ***"Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".***

Ulu öndər keçmiş sovet ideologiyasının hakim olduğu bir dövrdə milli şüurun formalaşması istiqamətində də lazımi tədbirlər həyata keçirirdi. Onun cəsarətli addımları sayəsində mərkəz Moskvanın ciddi etirazlarına baxmayaraq, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması, xalqımızda milli düşüncə tərzinin formalaşdırılması istiqamətində konkret addımlar atılırdı. Milli kadrların hazırlanmasını, onların yüksək vəzifələrə təyin olunmasını və bu kimi digər mühüm məsələləri diqqətdə saxlayan ümummilli lider Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması üçün zəruri olan hər bir şeyi dəqiqliklə həyata keçirirdi. Bu tədbirlər məhz ölkəmizi müstəqilliyə aparan Heydər Əliyev yolu idi.

Ümummilli liderin həyatı və fəaliyyətinin Naxçıvan dövrü də faktiki olaraq Azərbaycanın dövlət müstəqilliyinin siyasi-ideoloji əsaslarının qoyulduğu, varisliyə əsaslanan dövlətçilik prinsiplərinin bərpa olunduğu, müstəqil dövlətçilik konsepsiyasının ideya əsaslarının hazırlandığı dövr idi. Digər tərəfdən, dahi liderin Naxçıvandakı fəaliyyəti həm də muxtar respublikanın xilası ilə nəticələnmişdir.

Respublikamızın müstəqilliyinin ilk illərində ölkəmizi hökm sürən gərgin ictimai-siyasi vəziyyətdən, xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan yenə ulu öndər Heydər Əliyev və onun müəyyənləşdirdiyi işıqlı yol xilas etdi. Müdrik xalqımız belə bir ağır gündə ümummilli liderə üz tutaraq onu təkidlə hakimiyyətə dəvət etməsəydi, Türk dünyasının böyük oğlunun ətrafında birləşməsəydi, Onun yoluna sədaqətli qalmasaydı, yəqin ki, bu gün Azərbaycan adlı bir ölkə də olmayacaqdı.

Məhz ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf və yüksəliş yolu nəticəsində qısa müddətdə ölkə müstəqilliyin itirilməsi təhlükəsindən xilas oldu, cəbhədəki özbaşınalığa son qoyuldu, mərkəzi hakimiyyət gücləndirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, bütün sahələrdə dinamik inkişafa səbəb olan mühüm islahatlar, o cümlədən gələcəyə hesablanmış neft strategiyası həyata keçirilməyə başlanıldı... Və Heydər Əliyev yolu uçurumun kənarında olan bir respublikanı Cənubi Qafqazın lider dövlətinə, iqtisadi, siyasi və informasiya mərkəzinə çevirdi.

Azadlıq, müstəqillik yanğısıyla alışıb-yanan Azərbaycan xalqı özünün yüzillik arzusuna çatdı: müstəqil, hüquqi, demokratik, dünyəvi və qüdrətli Azərbaycan Respublikası yaradıldı.

Bu gün müstəqil Azərbaycan dövləti sürətlə inkişaf edir. Heydər Əliyev siyasəti, ulu öndərimizin işıqlı yolu bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında çox böyük məhəbbətlə, uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!"***

Ümummilli liderimizin Vətənimiz qarşısında göstərdiyi ən böyük xidmətlərdən biri də ölkəmizə, xalqımıza, dövlətə, dövlətçiliyə sədaqətli kadrlar yetişdirməsidir. Bu gün Heydər Əliyev siyasi məktəbinin yetirmələri olan həmin kadrlar cəmiyyətə düzgün yolu göstərir, ölkəmizin inkişafında fədakarlıqla çalışır, ən çətin şəraitdə belə, çox mühüm nailiyyətlər əldə etməyi bizə öyrədirlər. Onlar Heydər Əliyev yolu ilə inamla irəliləyir, ölkəmizi işıqlı gələcəyə aparırlar.

**Rauf ƏLİYEV**

## Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 46-cı ildönümü münasibətilə tədbirlər keçirilib

***Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev universitetinin 198-ci məşğələsi keçirilib.***

"Tərəqqi, yüksəliş və intibahın başlanğıc günü" mövzusundakı məşğələni giriş sözü ilə rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq ümummilli lider Heydər Əliyevin istər totalitar sovet rejimi, istərsə də müstəqillik illərində hakimiyyətdə olduğu zaman Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlər göstərdiyini vurğulayıb.

Qeyd olunub ki, 1969-cu il iyul ayının 14-də görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra keçmiş ittifaqın tənəzzül etməkdə olan bu respublikası inkişaf yoluna qədəm qoydu. Azərbaycan qısa bir zamanda aqrar ölkədən sənaye ölkəsinə çevrildi. Burada bir sıra ittifaq əhəmiyyətli sənaye müəssisələri salındı, əhalinin maddi-rifah halı yaxşılaşdırıldı, yeni iş yerləri açıldı. Azərbaycan tarixinin, mədəniyyətinin qorunması və təbliği, Azərbaycan dilinin dövlət dili statusu qazanması, milli elm və təhsilin, səhiyyənin inkişafı istiqamətində mühüm işlər görüldü. Müstəqillik illərində Azərbaycanda xarici və daxili siyasətin düzgün müəyyənləşdirilməsi, dinamik inkişafa və ərazi toxunulmazlığına nail olunması məhz ümummilli liderin çoxillik siyasi səriştəsinin nəticəsidir.

Məşğələdə universitetin tərbiyə işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev ümummilli liderin sovet hakimiyyəti illərindəki fəaliyyəti dövründə Azərbaycanı müstəqil gələcəyə aparan məqsədyönlü siyasət yürütməsindən danışıb. Bildirilib ki, 1969-1982-ci illərdə xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanda siyasi rəhbərlikdə olduğu müddətdə kənd təsərrüfatının və sənayenin ən müxtəlif sahələri inkişaf etdi, ölkədə 250 yeni müəssisə yaradıldı. Yeni-yeni orta və ali ixtisas məktəbləri açıldı, gənclərimizin digər respublikalarda ali təhsil almaları təmin olundu. Azərbaycan SSRİ-nin ən qabaqcıl müttəfiq respublikasına çevrildi, öz güclü iqtisadi potensialını, intellektual bazasını yaratmış oldu. Ümummilli lider bu illərdə milli təfəkkür və milli şüur səviyyəsini inkişaf etdirməklə, doğma dilimizi, tariximizi, ədəbiyyatımızı sevdirməklə milli ideologiyanın formalaşmasında da mühüm rol oynadı. Ulu öndərin hər iki hakimiyyəti dövründəki siyasi fəaliyyəti dünya diplomatiyasına qızıl hərflərlə yazılacaq bir məktəbdir. Təsadüfi deyil ki, bugünkü Azərbaycan məhz bu sağlam bünövrə üzərində, ümummilli liderin ideyalarını sədaqətlə davam etdirmək yolu ilə dünyanın inkişaf etmiş, beynəlxalq nüfuz qazanmış, tərəqqipərvər bir ölkəsinə çevrilib.

Universitetin elmi işlər üzrə prorektoru, fizika üzrə fəlsəfə doktoru Mübariz Nuriyev ümummilli lider Heydər Əliyevin ötən əsrin 60-cı illərinin sonlarında Azərbaycana rəhbər seçildikdən sonra ölkənin qazandığı iqtisadi, siyasi uğurlardan danışıb.

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında da ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 46-cı ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev bildirib ki, Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə minilliklər boyu əldə edilməsi mümkün olmayan nailiyyətləri gerçəkləşdirməyi bacaran dahi şəxsiyyət Heydər Əliyev keçmiş SSRİ dövlətinin rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi dövrdə də doğma Azərbaycanın inkişafı və çiçəklənməsinə, əhalinin rifah halının daha da yüksəldilməsinə çalışıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanı düşdüyü fəlakətlər girdabından xilas edən ümummilli liderimizin səyi nəticəsində dövlət müstəqilliyimiz əbədi, dönməz xarakter alıb.

Vurğulanıb ki, bu gün Azərbaycan öz iqtisadi inkişafına görə dünyanın öndə gedən ölkələrindən birinə çevrilib. Bunu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının timsalında da görmək olar. Ulu öndərimizin ideyalarının sədaqətlə həyata keçirildiyi bu qədim diyar özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Həyatın bütün sahələrində sürətli tərəqqi yolu ilə inamla və möhtəşəm nailiyyətlərlə irəliləyən muasir Naxçıvanın sosial-iqtisadi uğurları günü-gündən artmaqdadır. Qazanılmış uğurlar və bugünkü Azərbaycan reallıqları ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının nə dərəcədə mükəmməl olduğunu sübuta yetirib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının fəalları Emin Mehbalıyev, Elvin Məmmədov, Könül İsmayılova və başqaları çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, ümummilli liderimizin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonu da görkəmli dövlət xadiminin qayğısından xeyli bəhrələnib. Ordubad şəhərinin qoruq şəhərə çevrilməsi, rayonda muzeylər şəbəkəsinin genişləndirilməsi, yeni istehsal müəssisələrinin yaradılması, Gəmiqayada arxeoloji tədqiqatlar aparılması ulu öndərin bu bölgəyə böyük diqqətinin ifadəsi kimi tarixə yazılıb. Ötən dövrdə rayon mərkəzi və kənd yaşayış məntəqələrində genişhəcmli kompleks quruculuq tədbirləri həyata keçirilib. Ən ucqar və sərhəd dağ kəndləri belə, müasirliyə qovuşub. Əhalinin məşğulluğu diqqət mərkəzində saxlanılıb. Bütün bunlar isə 1969-cu ilin 14 iyulundan başlanan Heydər Əliyev siyasətinin təntənəsidir.

**Xəbərlər şöbəsi**



# 14 iyul 1969-cu il: Azərbaycanın özünə qayıdış günü

*Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu var. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaratmışdır. Buna görə də ümummilli liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə aktualdır. Ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü də xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir.*

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanmışdır. Dahi şəxsiyyət neçə illərin sükunətini hərəkətə gətirmiş, milləti, milli düşüncəni oyatmış, güclü iqtisadi potensial yaratmışdır.

Xalqımızın böyük oğlunun dövlət xadimi kimi formalaşmasında ötən əsrin 50-60-cı illəri həlledici rol oynamışdır. Məhz bu illərdə vəzifə pillələrində yüksəlişi Ona imkan verirdi ki, sovet dövlətçiliyinin mahiyyətinə dərindən bələd olsun. Bakıda M.C.Bağırovun mühakiməsindən sonra milli kadrlar artıq heç nəyi həll etmirdilər, dövlət təhlükəsizliyi orqanlarında isə vəziyyət, sadəcə olaraq, milli mənafelər baxımından faciəli idi. Dahi şəxsiyyət Heydər Əliyev müəyyən taktiki addımlarla mənsub olduğu xalq üçün strateji planları həyata keçirməyə çalışırdı. Həmin planlardan birincisi xalqı özünə tanıtdırmaq, onun etnokulturoloji həyatını bərpa etmək idi.

Bəlkə də buna görə bir sıra tarixçilər və siyasətşünaslar haqlı olaraq qeyd edirlər ki, Azərbaycan xalqının iyirminci əsrdəki milli qurtuluşu, əslində, 1969-cu il iyulun 14-dən başlanır. Çünki həmin tarixdə siyasi hakimiyyətə gələn görkəmli dövlət xadimi Heydər Əliyev, sözün həqiqi mənasında, xalqın həyatında möhtəşəm dəyişikliyə və misilsiz inkişafa nail oldu.

Ulu öndər Heydər Əliyev o dövrü belə xarakterizə edirdi: ***“Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi”.***

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdir. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi.

Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: ***“Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur”.***

1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal etmiş, Böyük Vətən müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Bu məqamdan məharətlə istifadə edən ulu öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin dövrdə görülən işləri xarakterizə edərək demişdir: ***“Tarixlik baxımından olduqca qısa bir müddətdə – cəmi 14 il ərzində Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əlavəsindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən məhsuldar fəaliyyət Heydər Əliyev quruculuq xəttinin fəlsəfəsini təşkil edirdi. Bu da ondan ibarət idi ki, Azərbaycan qısa müddətdə öz tarixi taleyinin sahibi oldu”.***

Ulu öndər Heydər Əliyev ana dilinin inkişafını da xüsusi diqqət mərkəzində saxlamış, Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət haqqı və milli özünüdərk gətirmişdir. Dahi rəhbər Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazanmışdı. 1978-ci il aprel ayının 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə Konstitusiyanın 73-cü maddəsinin aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”. Həmin dövrdə belə bir maddənin əlavə edilməsi çox böyük risk idi. Hər an ulu öndərə millətçi damğası vurmaq təhlükəsi yaranmışdı. Ancaq müdrik şəxsiyyət bütün bunlardan qorxmamış, Onun ana dilinə olan məhəbbəti, milli təəssübkeşliyi hər şeyi üstələmişdi.

Ulu öndər ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdə respublika gənclərinin bilavasitə Bakıda hərbi təhsil alması üçün o zamanlar mümkün olan bütün addımları atmış, imperiya rəhbərlərinin etirazına baxmayaraq, Azərbaycanda hərbi məktəbin açılmasına nail olmuşdu. Həmin dövrdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması Azərbaycanın milli hərbçi kadrların yetişdirilməsinə çox böyük töhfə idi. 1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif respublikalarında yerləşən 54 ən qabaqcıl ali hərbi məktəblərə və akademiyalara hərbi təhsil almağa göndərilmiş, milli kadrların hazırlanması problemi öz uğurlu həllini tapmışdır. Xüsusi vurğulamaq lazımdır ki, ümummilli liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycanın Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

1970-80-ci illərdə respublikanın ali məktəblərində 100-dən artıq yeni kafedra, 40-dan çox yeni fakültə açılmış, 100-ə qədər yeni ixtisasın hazırlığına başlanmışdı. Həmin illərdə ölkədə 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdı. Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi, səhiyyə sisteminin müasirləşdirilməsi, ölkənin yol infrastrukturunun daha da yaxşılaşdırılması, eləcə də ulu öndər tərəfindən reallaşdırılan bütün tədbirlər müstəqil Azərbaycan Respublikası naminə həyata keçirilirdi.

Ötən əsrin 70-ci illərində görülən məqsədyönlü işlər nəticəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikası da sürətlə inkişaf etməyə başlamışdır. Reallıq budur ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli birgə qərarının mühüm rolu olmuşdur. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmişdir.

Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə artmışdır. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır.

Ulu öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına həyat ritmini qoruyub saxlaya bilmişdir.

1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindəki siyasi fəaliyyəti ulu öndər Heydər Əliyev şəxsiyyətinin Sovetlər Birliyi miqyasında bir daha təsdiq olunduğu, Azərbaycanın dünya səviyyəsində tanıdıldığı dövrdür. Azərbaycanı həmin illərdə də diqqətdən kənarda qoymayan ümummilli liderimiz bütün imkan və bacarığını respublikamızın tərəqqisi və inkişafına yönəltmişdi. Nəticədə, Heydər Əliyevə görə keçmiş Sovetlər Birliyində ittifaq dövlətləri Azərbaycanla hesablaşır, ölkəmizdəki inkişafın qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi.

1990-1993-cü illərdə Azərbaycanla yanaşı, Naxçıvanın da başı üzərini qara buludların aldığı bir vaxtda ulu öndər Heydər Əliyev doğma Naxçıvana qayıtmışdır. 1990-cı il iyulun 22-də şəhərin mərkəzi meydanına toplaşan 80 min insan məhz belə bir taleyüklü məqamda Vətəninə qayıdan xilaskarını böyük coşqu ilə qarşıladı. Ağır müharibə, iqtisadi böhran şəraitində yaşayan naxçıvanlılar bu böyük şəxsiyyətə özlərinin nicatı və son ümidi kimi baxırdılar. Ulu öndər Heydər Əliyev Naxçıvana gəldikdən sonra qədim diyarın xilası üçün lazım olan bütün addımları atmağa başladı. Eyni zamanda yalnız muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mühüm rol oynayan qərarların qəbul edilməsinə nail oldu.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən 12-ci çağırış birinci sessiyasında “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edilmişdir. Ulu öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanının da adı dəyişdirilmiş, muxtar respublikanın ictimai-siyasi həyatına yeni ab-hava gətirilmişdir.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası çox böyük uzaqgörənliklə yekdillik nümunəsi göstərərək görkəmli dövlət xadimi Heydər Əliyevi Ali Məclisin Sədri seçdi. Naxçıvanlıların bu müdrik seçimi muxtar respublikanı real işğaldan və qaçqın həyatı yaşamaq təhlükəsindən xilas etdi.

1993-cü ilin yayında ölkədə qardaş qanı tökülmüş, milli dövlətçiliyimiz ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşmişdi. Belə bir ağır zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Vətəninin və xalqının taleyinə biganə qala bilməyən dahi rəhbər 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya getdi. Ulu öndərin bu qayıdışı Vətənin xilası, xalqın qurtuluşu idi. 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi hərtərəfli inkişaf edən, dünyada söz sahibinə çevrilən müstəqil Azərbaycanın daha da güclənməsinə səbəb olmuşdur.

Əsası 1969-cu ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli inkişaf konsepsiyası bu gün uğurla davam etdirilir. 2003-cü ilin prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyev yolunun davamına səs vermişdir. Dövlət başçısı cənab İlham Əliyev bu məsuliyyətli vəzifəni üzərinə götürərkən bəyan etmişdir ki, bütün fəaliyyətini Heydər Əliyev siyasəti, insana qayğı və diqqət üzərində quraraq sosialyönümlü siyasət həyata keçirəcəkdir. Görülən işlər ölkəmizi günü-gündən irəliyə doğru aparır.

*Ümummilli liderimiz Heydər Əliyev təkcə qüdrətli Azərbaycan dövləti yaratmayıb. O həmçinin bu dövlətin gələcək inkişaf konsepsiyasını da müəyyənləşdirmişdir. Bu gün əsas nailiyyətimiz sayılan ictimai sabitliyin davamlı prosesə çevrilməsi, onilliklərboyu xalqın sosial rifah halını təmin edən yeni neft strategiyasının hazırlanması, qeyri-neft sektorunun inkişaf etdirilməsi ulu öndərin dövlətçilik konsepsiyasının tərkib hissəsidir. Ümummilli liderimizin siyasi fəaliyyəti Azərbaycana xidmətin ən kamil nümunəsidir. Gələcəkdə Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını Heydər Əliyev quruculuq xəttinin daha böyük uğurları, nailiyyətləri gözləyir.*

**“Şərq qapısı”**

*Tarix dəfələrlə sübut etmişdir ki, yalnız milyonlarla insanı bir məqsəd ətrafında sıx birləşdirən rəhbər öz millətini irəli apara bilər. Azərbaycanın mübarizələrlə dolu qədim tarixinə baxdıqda, hələ ötən əsrin 70-ci illərindən bu günədək milli özünüdərk istiqamətində Heydər Əliyev şəxsiyyətinin açdığı yol açıq görünməkdədir.*


Heydər Əliyev Sarayı

# Ulu öndərimiz Heydər Əliyevin ötən əsrin 70-80-ci illərinin quruculuq yadigarları

Bir ölkənin gücü onun iqtisadiyyatı ilə ölçülür. Bu gün Azərbaycanın əldə etdiyi uğurlar məhz onun iqtisadiyyatının verdiyi güclə müstəqil siyasət yeridə bilməklə qazanılmışdır. Bu uğurların əsası xalqımızın böyük oğlu Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə qoyulmuşdur. Bu, həmin dövr idi ki, Azərbaycan keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri kimi taleyin ümidinə buraxılmışdı. Belə ki, o dövrdə görkəmli dövlət xadimi Heydər Əliyev respublika rəhbərliyinə seçiləndə Azərbaycanın iqtisadiyyatı dərin iqtisadi böhran mərhələsi keçirirdi. Həyatın bütün sahələrində sosial-iqtisadi inkişafın geriliyi açıq-aydın görünürdü. Bir çox sahələrdə – milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə, ictimai əməyin məhsuldarlığına görə Azərbaycan ittifaq göstəricilərindən geridə qalırdı. 1969-cu ildə Azərbaycan SSR təkcə milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfə geri qalırdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcəkdə Azərbaycanın müstəqilliyinin təmin olunması üçün zəmin hazırlamışdır. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin tikilib istifadəyə verilməsi ilə sosial-iqtisadi tərəqqi yüksək mərhələsinə çatmışdır.

Məhz böyük dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə 70-80-ci illərdə ucqar rayon mərkəzlərində, müxtəlif bölgələrdə respublika əhəmiyyətli obyektlər tikilir, yeni iş yerləri açılırdı. Bunun nəticəsində Azərbaycanda əmək ehtiyatlarından səmərəli istifadə edilməsi təmin edilirdi. Beləliklə, o dövrdə xalqımızın böyük oğlu Heydər Əliyev bu fəaliyyəti ilə bugünkü müstəqil Azərbaycan dövlətinin inkişafının təməlini qoymuşdur.

1969-cu ildən sonra başlayan intibah dalğası Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafında dərin izlərlə yadda qalmışdır. Vətən sevgisi amalını hər şeydən üstün hesab edən, öz xalqına, millətinə xidmət etməyi ən böyük xoşbəxtlik sayan ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Naxçıvanın da dirçəlişinin başlanğıcı idi. 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geri qalırdı. Bunun aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli birgə qərarının mühüm rolu olmuşdur. Naxçıvanlılar ilk dəfə olaraq regionda yaradılmış irihəcmli istehsal müəssisələri hesabına rahat iş tapmaq imkanı əldə etmişlər. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlmişdir. Naxçıvanda 1985-ci ilədək müxtəlif sahələr üzrə yaradılmış iri sənaye müəssisələrində trikotaj məmulatlarından tutmuş elektrotexnika avadanlıqlarınadək geniş çeşiddə məhsullar istehsal olunurdu. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullar respublikanın və keçmiş ittifaqın müxtəlif yerlərinə göndərilir, muxtar respublikanın geniş torpaqları əkin dövriyyəsinə cəlb olunur, bu yerlərin torpaqlarına uyğun olan ənənəvi bağçılıq, meyvəçilik istiqamətində mühüm işlər aparılırdı. Bu dövrdə əhalinin rifah halının yüksəlməsi onların istehlak xərclərinin artması, rabitə, nəqliyyat xidmətlərindən geniş istifadə olunması ilə müşayiət olunur, Bakı və Naxçıvan arasında hava nəqliyyatı əlaqələri yaradılırdı. 1969-1982-ci illərdə bir çoxları indi də Naxçıvanda fəaliyyət göstərən mədəniyyət müəssisələri və muzeylər, məktəblər və xəstəxanalar inşa olunmuş, köhnə Naxçıvanın qoynunda müasir, yeni Naxçıvan yaradılmışdır. Həmin dövrdə muxtar respublikada aqrar bölmənin maddi-texniki bazası möhkəmləndirilmiş, ət-süd kombinatları, taxıl və üzüm emalı müəssisələri, yeni heyvandarlıq və südçülük kompleksləri, quşçuluq-broyler fabrikləri istifadəyə verilmişdir. İrimiqyaslı meliorasiya tədbirləri həyata keçirilmiş, istifadəyə verilən 20 yeni su anbarı hesabına 55 min hektara yaxın torpaq sahəsinin suvarılması təmin olunmuş, əkin dövriyyəsinə yeni torpaqlar əlavə edilmişdir. Mürəkkəb relyefə malik dağlıq ərazi ilə Naxçıvana təbii qaz xəttinin çəkilməsi ötən əsrin 70-80-ci illərinin inanılmaz nailiyyətlərindən biri idi. Bu gün xalqımızın böyük oğlunun adını daşıyan Heydər Əliyev Sarayı məhz görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyinin birinci dövründə tikilmiş, Naxçıvanın minlərlə hektar ərazisini suvarmağa imkan verən Heydər Əliyev Su Anbarının təməli o dövrdə qoyulmuşdur. Bunlarla yanaşı, Araz Su Elektrik Stansiyasının, Şərurda Arpaçay Su Anbarının istifadəyə verilməsi Naxçıvanda torpaqların suvarılması ilə yanaşı, muxtar respublikanın gələcəkdə enerji təhlükəsizliyinin də əsasının qoyulması demək idi. 1990-cı illərin əvvəllərində Naxçıvan düşmən blokadasına alınarkən məhz həmin enerji mənbələri hesabına muxtar respublikanın enerjiyə olan tələbatı az da olsa ödənilirdi. 1978-ci ildə yaradılmış Babək rayonu, Naxçıvan şəhərində salınmış yeni mikrorayonlar, Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Kompleksi, həmin dövrdə istifadəyə verilən "Təbriz" mehmanxanası ümummilli liderimizin yadigarlarıdır.


"Təbriz" mehmanxanası


Arpaçay Su Anbarı


Babək qəsəbəsi

Beləliklə, bu gün hara baxsaq, izləri görünən və ötən əsrin 70-ci illərində ulu öndər tərəfindən müəyyənləşdirilən inkişaf və dirçəliş xətti nəticəsində Naxçıvan Muxtar Respublikası özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. O dövrün Naxçıvanı öz tarixində bu qədər ciddi dəyişikliklər görməmişdi. Muxtar respublikanın sənaye potensialını artıran, minlərlə gəncə yeni iş yerləri qazandıran bu siyasət, əslində, Naxçıvanın muxtariyyətinin etibarlı zəmanətinə çevrilmişdir.

***Ulu öndərin muxtar respublikanın ən ucqar bölgəsində insanları yaşadığı torpağa bağlayan bu əvəzsiz töhfələri illər keçdikcə dərin yurd sevgisi ilə möhkəmlənərək Naxçıvanı alınmaz bir qalaya çevirəcəkdi. Bu, taleyin Naxçıvana ən böyük hədiyyəsi idi.***

✍ **Əli CABBAROV**

# Muzeylərlə tanışlıq insanlarda zəngin təəssüratlar yaradır

***Hər bir xalqın tarixini, ədəbiyyatını, milli-mənəvi dəyərlərini, mədəni abidələrini öyrənmək üçün ən gözəl vasitələrdən biri muzeylərdir. Belə mədəniyyət müəssisələri müxtəlif sahələri əhatə etməklə keçmişdən bu günə körpü rolunu oynayır. Muxtar respublikada "Muzey günləri"nin tərtib olunması bu cəhətdən böyük əhəmiyyət daşıyır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif təşkilatların kollektivləri Naxçıvan şəhərində, rayonlarda yaradılmış muzeylərə gedir, həmin muzeylərlə yaxından tanış olurlar.***

İyulun 11-də "Naxçıvanqaz" İstehsalat Birliyinin, Satınalmalar üzrə Dövlət Agentliyinin kollektivləri Heydər Əliyev Muzeyini ziyarət ediblər. Burada onlara muzeyin fəaliyyəti haqda ətraflı məlumat verilib. "Naxçıvanqaz" İstehsalat Birliyinin əməkdaşı Elçin Nəsirov söhbət zamanı bildirdi ki, muzeylərə təşkil olunan gedişlər insanların dünyagörüşünün artmasında, yeni bilgilər əldə etmələrində mühüm rol oynayır. Bizə bu gün bu muzeydə ulu öndərimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə zəngin məlumat verildi.



Həmin gün Dini Qurumlarla İş üzrə İdarənin, Dövlət Energetika Agentliyinin, Dövlət Baş Sığorta Agentliyinin kollektivləri Dövlət Bayrağı Muzeyini, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Arxiv İdarəsinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyini, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidməti və struktur qurumlarının, Dövlət Miqrasiya Xidmətinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Mərkəzi Seçki Komissiyasının, Dövlət Sosial Müdafiə Fondunun kollektivləri Ədəbiyyat Muzeyini, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, "Şərq qapısı" qəzeti redaksiyasının kollektivləri isə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər.

Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı Rza Qarayevlə də həmsöhbət olduq. O bildirdi ki, muzeyləri



ziyarət artıq tələbata çevrilib. Çünki belə müəssisələrlə tanışlıq insanlarda zəngin təəssüratlar yaradır. Kollektivçilik ruhunu gücləndirir.

Həmin gün rayonlardakı muzeylər də ziyarət olunub.

**Xəbərlər şöbəsi**

*Dağlıq zonada yerləşən Şahbuz rayonunda son illər digər kənd təsərrüfatı sahələri kimi, taxılçılığa da maraq xeyli artıb.*

## Şahbuz rayonunda taxıl biçini sürətlə davam etdirilir

Bölgənin relyefi muxtar respublikanın digər yerləri ilə müqayisədə burada məhsul tədarükünün bir qədər çətinliyini ortaya qoyur. Buna baxmayaraq, əvvəlcədən həyata keçirilən tədbirlər rayonun torpaq mülkiyyətçilərinin çəkdiyi zəhmətin hədər getməsinin qarşısını alır. Rayon ziyalısı və el ağsaqqalı Qaşdar Əliyev deyir ki, sovet dönəmində belə bir fikir yayılmışdı ki, dağlıq zonalarda taxıl əkmək zəhmətin hədər getməsi deməkdir. Ancaq son illərdə bu sahənin inkişafı üçün həyata keçirilən tədbirlər göstərdi ki, bu fikir kökündən səhvdir. Qayğı, maraq olarsa, zəhmət çəkilərsə hər şeyə nail olmaq mümkündür. Bunu elə Şahbuz rayonunun timsalında görmək olar. Bir neçə ildir ki, rayonda taxılçılıqda əldə edilən yüksək nəticələr belə deməyə əsas verir. Dağlıq rayonda nail olunan məhsuldarlıq heç də aran zonalardan aşağı deyil.

Öyrəndik ki, şahbuzlular cari ilin məhsulu üçün 1344 hektar sahədə taxıl yetişdiriblər. Artıq məhsul tədarükünə başlanılıb. Türkeş, Sələsüz, Badamlı kəndlərindən start götürən taxıl yığımında, hələlik, 4 kombaynın gücündən istifadə olunur. Bu günədək, ümumilikdə, rayon üzrə 240 hektar sahənin taxılı yığılıb. Bunun 90 hektarını buğda, 150 hektarını arpa təşkil edir.

Türkeş kənd sakini Şakir Xudiyev 12 hektar, Bayraməli Həziyev 9 hektar sahədə taxıl əkiblər. Mövsüm ərzində bütün aqrotexniki tədbirləri həyata keçiriblər. Sahələrdə bol məhsul yetişdirilib. Şakir Xudiyev deyir ki, taxılçılıqla bir neçə ildir, məşğuldur. Dövlətimizin yaratdığı şəraitdən istifadə edərək hər il yüksək məhsuldarlığa nail olur. Keyfiyyətli toxumla, gübrə ilə təmin edilir. Son illər rayonda həyata keçirilən meliorasiya və irriqasiya tədbirləri əkin sahələrinin su ilə təchizatında mühüm rol oynayıb. Bu səbəbdən də Şahbuzda əkilməmiş torpaq sahəsinə rast gəlməzsən. Taxılçılığa marağın ildən-ilə artması hərtərəfli qayğı ilə əlaqədardır. Taxıl istehsalına öz töhfələrini verən şahbuzlular bu sahəni daha da inkişaf etdirməyə çalışırlar.

Onun həmkəndlisi Bayraməli Həziyev taxıl biçinini başa çatdırıb. Deyir ki, qısa müddətdə sahənin küləşini yığışdırmalı, şum qaldırılmasına başlamalıdır. Bunun üçün də hər cür imkanlar yaradılıb. Rayonda torpaq mülkiyyətçilərinin ixtiyarına kifayət qədər texnika verilib.

Taxılçılıqla məşğul olan bir neçə torpaq mülkiyyətçisi ilə də həmsöhbət olduq. Hamısı ilin uğurlu gəldiyini bildirdi. Bu isə o deməkdir ki, cari ildə də süfrəmiz yerli taxılımızdan istehsal edilən çörəklə bol olacaq.

✍ **Muxtar MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 13 iyul 2015-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | | | Biçilən taxıl sahəsi (hektar) | | | Məhsul istehsalı (ton) | | | Məhsuldarlıq (sentner) | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi: | Ondan | | Cəmi: | Ondan | | Cəmi: | Ondan | | Cəmi: | Ondan | |
| | | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa |
| 1. | Şərur | 9187 | 7315 | 1872 | 6907 | 5093 | 1814 | 22186 | 16485 | 5701 | 32,1 | 32,4 | 31,4 |
| 2. | Babək | 10476 | 7869 | 2607 | 8476 | 5925 | 2551 | 25911 | 19210 | 6701 | 30,6 | 32,4 | 26,3 |
| 3. | Culfa | 4982 | 3957 | 1025 | 2920 | 2080 | 840 | 6982 | 4726 | 2380 | 23,9 | 22,7 | 28,3 |
| 4. | Ordubad | 2150 | 1308 | 842 | 2150 | 1308 | 842 | 5798 | 3584 | 2214 | 27,0 | 27,4 | 26,3 |
| 5. | Şahbuz | 1344 | 1022 | 322 | 240 | 90 | 150 | 625 | 255 | 370 | 26,0 | 28,3 | 24,7 |
| 6. | Kəngərli | 4735 | 3104 | 1631 | 3893 | 2277 | 1616 | 11182 | 6873 | 4185 | 28,7 | 30,2 | 25,9 |
| 7. | Sədərək | 2132 | 1147 | 985 | 1700 | 740 | 960 | 5245 | 1995 | 3250 | 30,9 | 27,0 | 33,9 |
| 8. | Naxçıvan şəhəri | 1231 | 1024 | 207 | 677 | 477 | 200 | 1650 | 1150 | 500 | 24,4 | 24,1 | 25,0 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | **36237** | **26746** | **9491** | **26963** | **17990** | **8973** | **79579** | **54278** | **25301** | **29,5** | **30,2** | **28,2** |

## Muxtar respublikada keçirilən növbəti iməciliklər mütəşəkkilliyi ilə yadda qalmışdır

***İyulun 11-də muxtar respublikanın şəhər və rayonlarında keçirilən iməciliklər mütəşəkkilliyi ilə yadda qalmışdır.***



Naxçıvan şəhərinin sakinləri Uzun-oba Su Anbarının yaxınlığındakı yaşıllıq sahəsində, müəssisə və təşkilatların ərazilərindəki ağaclara aqrotexniki qulluq göstərmişdir.

Şərur rayonunda keçirilən iməciliklərdə də əhalinin mütəşəkkilliyi müşahidə edilmiş, rayonun Zeyvə, Yuxarı Daşarx və Dizə kəndlərindəki yaşıllıq sahələrində təmizlik və suvarma işləri görülmüşdür.

Babək rayonunun sakinləri isə Babək qəsəbəsində və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə gedən yolun kənarlarındakı ağaclara aqrotexniki qulluq göstərmişlər.

Ordubad rayonunda keçirilən iməciliklərdə rayon sakinləri Naxçıvan-Ordubad magistral yolunun "Əylis düzü" adlanan hissəsində, Aşağı Əylis yolunda və rayon Mərkəzi Xəstəxanasının həyətindəki yaşıllıqlarda təmizlik və suvarma işləri aparmışlar.

Culfa rayonunda keçirilən iməciliklərdə də fəallıq müşahidə olunmuşdur. Rayon sakinləri Əlincə qalasının ətəklərindəki yaşıllıqlarda 200 ədəd meyvə ağacı əkmiş, müəssisə və təşkilatların ərazilərində ağacların dibini alaq otlarından təmizləyərək suvarmışlar.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun sağ və sol hissəsində, rayon İcra Hakimiyyətinin qarşısında və Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin həyətindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şahbuzlular şəhərin girişindəki yaşıllıq sahəsində 100 ədəd həmişəyaşıl ağac əkmiş, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara qulluq etmişlər.

Sədərək rayonunda da iməciliklər mütəşəkkilliklə davam etdirilmiş, Naxçıvan-Sədərək magistral yolunun sağ hissəsində, Qaraağac kəndində yol kənarlarında və Sədərək kənd 1 nömrəli tam orta məktəbin həyətindəki yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilmişdir.

Ümumilikdə, iyulun 11-də muxtar respublikada keçirilən iməciliklərdə 23 min 986 nəfər iştirak etmiş, 300 ədəd ağac və bəzək kolları əkilmişdir.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

✍ **Səbuhi HƏSƏNOV**

## Təhlükəsiz və sağlam iş yerlərinin yaradılması sosial siyasətin əsas tərkib hissəsidir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar cari ilin ilk 6 ayında 38 müəssisə və tikinti sahəsində nəzarət həyata keçirilmiş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 26 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmış, 43 işçi isə həmin vasitələrlə yerində təmin olunmuşdur. Bir halda əməyin mühafizəsi qaydalarının pozulması və istehsalatda xəsarətalma ilə nəticələnən hadisələrlə bağlı tərtib olunan "İnzibati xəta haqqında protokol"a uyğun olaraq, 2 işəgötürənə müvafiq olaraq 1000 manat və 1500 manat məbləğində cərimə tətbiq edilmişdir.

Müvafiq dövr ərzində istehsalatda baş vermiş hadisələrlə bağlı səhiyyə müəssisələri tərəfindən 23 məlumat daxil olmuşdur. Araşdırma zamanı 6 hadisənin istehsalatla əlaqədar olmadığı müəyyən edilmişdir. Yüngül zədəalma ilə nəticələnən 17 hadisənin səbəbləri aşkarlanaraq gələcəkdə bir daha təkrarlanmaması məqsədilə müvafiq tədbirlərin görülməsinə dair müəssisələrə təlimatlar verilmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsalatda baş vermiş hadisələrin ümumi sayında azalma müşahidə olunmuş, ölüm və xəsarətalma ilə nəticələnən bədbəxt hadisə baş verməmişdir.

Məlumatda bildirilir ki, 2015-ci ilin ilk altı ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə tikinti aparılacaq meydançalarda müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılmasına nəzarət məqsədilə, ümumilikdə, 28 tikinti sahəsinə baxış keçirilmiş, müvafiq akt tərtib olunaraq həmin tikinti sahələrində inşaat işlərinə başlanmasına razılıq verilmişdir.

Cari ilin ilk altı ayı ərzində işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının real göstərilməsinə nəzarət məqsədilə 312 sahibkarlıq obyektinə baxış keçirilmiş, 161 işçi ilə yeni əmək müqaviləsinin bağlanmasına və 816 halda isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunmuşdur.

"İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri ilə birlikdə müvafiq sahibkarlıq subyektlərində araşdırmalar aparılmış və 147 müəssisədə işçilərin icbari sığorta etdirilməsinə dair müqavilənin bağlanmasına nail olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi və texniki təhlükəsizlik norma, qayda və standartlarına əməl olunması" və "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl olunması" mövzularında maarifləndirici kurslar təşkil olunmuşdur. Kurslara muxtar respublikada fəaliyyət göstərən 69 müəssisədən 75 nümayəndə cəlb edilmişdir.

Kurslarda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin, Həmkarlar İttifaqları Şurasının və Dövlət Miqrasiya Xidmətinin nümayəndələri tərəfindən müvafiq mövzular tədris olunmuşdur.

28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə istehsalat xüsusiyyətləri nəzərə alınmaqla müəssisələrdə əməyin mühafizəsi mütəxəssislərinin biliklərinin və peşəkarlıq səviyyələrinin artırılması məqsədilə seminarlar keçirilmiş, seminar iştirakçılarına əməyin mühafizəsinə dair bukletlər təqdim olunmuş, həmçinin əməyin mühafizəsi sahəsinə dair müxtəlif mövzuda videoçarx hazırlanaraq Naxçıvan Muxtar Respublikası Dövlət Televiziyasında nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**

Yay mövsümünü Şahbuz, Culfa və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2014-cü ildə xüsusi həkim

## Həkim briqadaları yaylaqlarda profilaktik tibbi müayinələrə start veriblər

briqadaları yaratmış, həmin briqadaların mövsüm ərzində daim yaylaqlara getməsi, burada müvəqqəti yaşayan əhalinin sağlamlığının qorunmasına xidmət etməsi təmin olunmuşdur. Obalarda yaşayan sakinlərin zəruri dərman həbləri, sarğı materialları ilə təminatı, səhiyyə maarifi işi aparılması, mövsümi xəstəliklər, günvurma, ilan və əqrəb çalmaları, yaralanma zamanı ilk yardım barədə tibbi məsləhətlər verilməsi də diqqətdə saxlanılan məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin cari ilin iş planına uyğun olaraq, həkim briqadaları yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidmətinə start vermişdir.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının çoxprofilli həkim briqadası Göygöl ərazisindəki yaylaqlarda məskunlaşan heyvandarlara baş çəkmişdir. Hazırda təkcə Genyurd yaylağında 6 oba məskən salıb. Onların öhdəsində 6 minə yaxın baş mal-qara, qoyun-quzu var. Çadırlarda fermer və çobanlarla yanaşı, onların 24 ailə üzvü yaşayır. Briqadanın fəaliyyəti zamanı onların hamısı profilaktik tibbi müayinəyə cəlb olunmuş, pediatrik, kardioloji, cərrahi, stomatoloji müayinələr aparılmış, ilkin tibbi yardım üçün dərmanlar paylanmışdır.

Ordubad Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən obalarda dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirilmişdir.

Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası isə Qanlıgöl ərazisindəki yaylaqlarda məskunlaşan heyvandar və arıçıları profilaktik tibbi müayinələrdən keçirmişdir. Yaylaqda arana nisbətən havaların sərin keçməsi obalardakı azyaşlı uşaqların bir qismində qulaqağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə olunmuş, onların müalicəsi ilə bağlı lazımi dərmanlar verilmişdir.

Briqadanın fəaliyyəti zamanı mövsümi xəstəliklər, ilan-əqrəb çalmaları və ilkin tibbi xidmətin təşkili barədə səhiyyə maarifi işi aparılmışdır.

Babək rayonunun Qahab kəndindən gələrək öz ailəsi ilə burada müvəqqəti məskunlaşan fermer Bəxtiyar Zamanov onlara göstərilən tibbi xidmət üçün heyvandar və arıçılar adından minnətdarlığını bildirmişdir.

Culfa Rayon Mərkəzi Xəstəxanasının, Gigiyena və Epidemiologiya Mərkəzinin həkim briqadası isə ucqar dağ kəndi Ləkətağda olmuşdur. Dəmirli yaylağında məskunlaşan heyvandarların əksəriyyəti rayonun Bənəniyar kəndindən gələrək mövsümü burada keçirir. Heyvandarlığın inkişafına göstərilən dövlət qayğısı nəticəsində son illər kənddə davarların sayı 10 min 172 başa çatıb. Qoyun sürülərinin xeyli hissəsi bir ay əvvəl Dəmirli və Kola yaylaqlarına qaldırılıb. Həkim briqadası heyvandarları tibbi müayinələrlə əhatə etmiş, dezinfeksiya tədbirləri həyata keçirmiş, sanitar maarifi işi aparmışdır.

Şərur Rayon Mərkəzi Xəstəxanasının, Gigiyena və Epidemiologiya Mərkəzinin həkim briqadası isə rayonun Tənənəm yaylağında heyvandarlara baş çəkmişdir.

Müayinələr mövsüm boyu davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhər sakini Abbasova Nərminə İmran qızına Babək məhəlləsindəki 1ª nömrəli binada yerləşən 22 nömrəli mənzili alması haqqında 27 aprel 2005-ci il tarixdə imzalanaraq verilmiş 239236 nömrəli müqavilə itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 541**